# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №11 (7482) | 23 avqust 2020-ci il | Bazar | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


# Şirvan şəhər İcra Hakimiyyətində növbəti video-müşavirə keçirilib

## Əlaqədar təşkilatlara tapşırıq və tövsiyələr verilib

**Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun sədrliyi ilə video-müşavirə keçirildi. Müşavirədə DTX-nin Şirvan şəhər şöbəsinin rəisi Təhmasib Gözəlov, Şirvan şəhər prokuroru Fuad Məmmədov, Polis şöbəsinin rəisi Hikmət Quliyev, 5 saylı Ərazi Vergilər idarəsinin rəisi Fuad Mahmudov, Şirvan şəhər Mərkəzi Xəstəxanası PHŞ-in direktoru Fərhad Səfərov, Şirvan Müalicə Diaqnostika Mərkəzinin baş həkimi Nəsib Səhratov, Şirvan Bələdiyyəsinin sədri Kürdoğlu Muradov, Qida Təhlükəsizliyi Agentliyinin Salyan regeonal bölməsinin əməkdaşı Ceyhun Nağıyev, Gigiyena və Epidemiologiya Mərkəzinin baş həkimi Mehdixan Süleymanov və İcra Hakimiyyətinin məsul əməkdaşları, İcra nümayəndələri, aidiyyatı xidmət təşkilatlarının rəhbərləri iştirak etmişdir.**





Video-müşavirədə giriş sözü ilə çıxış edən Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın xüsusi karantin rejiminə nəzarətin gücləndirilməsinə dair geniş tərkibli videokonfransın keçirildiyini, Baş Nazir cənab Əli Əsədovun sədrliyi ilə keçirilən videokonfransda sanitar qaydalara ciddi əməl olunması, nəzarət funksiyalarını qüsursuz həyata keçirməli olan şəhər və rayon icra hakimiyyətləri, hüquq-mühafizə orqanları - prokurorluq, polis, DTX, səhiyyə strukturları qarşısında duran vəzifələrlə bağlı tapşırıq və tövsiyələr verildiyini qeyd etdi.

İcra Hakimiyyətinin başçısı İlqar Abbasov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə koronavirus (COVİD-19) pandemiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması və xalqımızın bu yolxucu infeksiyadan az zərərlə çıxması istiqamətində Nazirlər Kabineti yanında Operativ Qərargahın tapşırıq, qərar və tövsiyələrinin ölkəmizdə yerinə yetirilməsinə yönəlik zəruri qabaqlayıcı tədbirlərin görüldüyünü, profilaktik və təxirəsalınmaz tədbirlərin yerlərdə də davam etdirildiyini bildirdi.

Koronavirusa qarşı mübarizə tədbirləri çərçivəsində Şirvan şəhəri ərazisində, 386 yaşayış binasının ətrafında, giriş bloklarında və pilləkənlərdə, ticarət və ictimai-iaşə obyektlərində, sərnişindaşıma xidməti göstərən nəqliyyat vasitələrində, ödəniş terminalarında, park və xiyabanlarda, avtomobil dayanacaqlarında dezinfeksiya işləri, evdə müalicəyə cəlb olunmuş şəhər sakinləri ilə bağlı həyata keçirilən tədbirlər, koronavirus profliktıkasına dair metodiki göstərişlərin icrasına nəzarət məqsədilə şəhər İcra Hakimiyyəti, Polis Şöbəsi, Dövlət Təhlükəsizlik Xidmətinin şəhər şöbəsi, QTA və 5 saylı Ərazi Vergilər idarəsinin rəhbər və məsul əməkdaşlarının iştirakı ilə ticarət və xidmət obyektlərində keçirilən reydlər və onların nəticələri, mobil təbliğat qruplarının fəaliyyəti, inzibati məsuliyyət tədbirləri barədə geniş məlumat verildi. Video-müşavirədə infeksiyanın yayılmasının qarşısının alınması istiqamətində aidiyyatı dövlət qurumlarının nümayəndələri tərəfindən görülən işlər barədə ətraflı məlumatlar verildi. Həyata keçiriləcək profilaktik tədbirlərlə bağlı təkliflər irəli sürüldü.

Müxtəlif bank filallarında və ödəmə terminalarında, ictimai nəqliyyatda dezinfeksiya işlərinin aparılması, sosial məsafənin gözlənilməsi, maskadan istifadəyə ciddi nəzarətin davam etdirilməsi tövsiyə olundu.

Sonra Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov həlli vacib olan məsələlərlə bağlı aidiyyəti qurumların rəhbərlərinə, məsul əməkdaşlara müvafiq tapşırıq və tövsiyələr verdi.

# Şirvanda koronavirus əleyhinə profilaktik tədbirlərə nəzarət daha da gücləndirilir




**Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələrinə uyğun olaraq Baş Nazir cənab Əli Əsədovun sədrliyi ilə keçirilən videokonfransda koronavirus infeksiyasının yayılmasının və törədə biləcəyi fəsadların qarşısının alınması istiqamətində verilən tapşırıqların yerinə yetirilməsi, koronavirusun profilaktikasına dair metodiki göstərişlərin icrasına nəzarət məqsədilə Şirvan şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, DTX-nin Şirvan şəhər şöbəsinin rəisi Təhmasib Gözəlov, Polis şöbəsinin rəisi Hikmət Quliyev, 5 saylı Ərazi Vergilər idarəsinin rəisi Fuad Mahmudov, Qida Təhlükəsizliyi Agentliyinin Salyan regional bölməsinin rəisi Vüqar Əliyev və digər aidiyyətı dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə şəhər ərazisində fəaliyyət göstərən ticarət və ictimai iaşə obyektlərinə reydlər keçirilmişdir.**

Reyd zamanı ticarət və ictimai iaşə obyektlərinin sahibləri, xidmətdən istifadə edən sakinlərlə maarifləndirici söhbətlər aparılmış, obyektlərin giriş hissəsində dezinfeksiyaedici maddələrlə obyektə daxil olan insanların əllərinin dezinfeksiya olunması, maskasız daxil olan insanlara maskaların verilməsinin təşkil edilməsi, insanlar arasında sosial məsafənin gözlənilməsi, xidmətdən istifadə edənlərin və satıcıların birmənalı şəkildə fərdi qoruyucu vasitələrdən istifadə etmələri, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinin texniki vasitələrlə mütamadi səsləndirilib, alıcıların nəzərinə çatdırılması barədə tövsiyələr verilmiş,qida təhlükəsizliyi və sanitar-epidemioloji sahədə qanunvericiliyin tələbləri izah olunmuş,icrası məcburi göstərişlər verilmişdir.

Xüsusi karantin rejiminin tələblərinə, habelə sanitar-epidemioloji normalara əməl etməyənlər barədə inzibati tədbirlərin davam etdiriləcəyi obyekt sahiblərinin nəzərinə çatdırılmış, qaydalara əməl etməyənlər barədə qanunvericiliyə uyğun daha sərt tədbirlərin görüləcəyi bildirilmişdir.

Şirvan şəhər ərazisində Nazirlər Kabineti yanında Operativ Qərargahın verdiyi tövsiyə, qərar və tapşırıqların yerinə yetirilməsi istiqamətində nəzarət tədbirləri bundan sonra da ardıcıl davam etdiriləcəkdir.

**Azərbaycan Respublikası ərazisində koronavirus infeksiyasının (COVİD-19) yayılmasının qarşısının alınması və sosial təcridin gücləndirilməsi ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə uyğun olaraq Şirvan şəhərində də təxirəsalınmaz tədbirlər davam etdirilir.**

# Şəhərimizdə mobil təbliğat qruplarının fəaliyyəti daha da artırılıb

Şirvan şəhər İcra Hakimiyyəti koronavirus infeksiyasının geniş yayılmasının qarşısının alınması məqsədilə insanları diqqətli olmağa, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə riayət etməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarları və müəyyənləşdirdiyi qaydaları tam yerinə yetirməyə çağırır. Bu məqsədlə mobil təbliğat qruplarının imkanlarından səmərəli istifadə edilir.

Mobil təbliğat qruplarının üzvləri xəstəliyin əlamətləri, sosial məsafənin gözlənilməsi, şəxsi gigiyena qaydalarına riayət edilməsi, tibbi maskalardan istifadə qaydaları, xüsusi zərurət olmadan digər şəxslərlə təmasda olmamaları, hər cür ehtiyat tədbirləri görmələri barədə əhali arasında maarifləndirmə işləri aparırlar. Sakinlərə izah edilir ki, koronavirus (COVİD-19) infeksiyasına yoluxma halı aşkar edildiyi halda, dərhal xəstəxanaya müraciət edilməli, onunla təmasda olan bütün insanlar, o cümlədən ailə üzvləri dərhal testdən keçirilməli və testin nəticəsindən asılı olmayaraq 14 (on dörd) gün müddətində təcrid olunmalı, təcrid olunmuş şəxslər 14 (on dörd) gün sonra təkrar test olunmalı və nəticəsindən asılı olaraq ambulator-proflaktik müəssisə tərəfindən müvafiq qərar verilməlidir. Mobil təbliğat qrupları əhali ilə yanaşı şəhərdə fəaliyyət göstərən ticarət, ictimai iaşə obyektlərində də lazımi maarifləndirmə tədbirləri həyata keçirir. Sahibkarları, ticarət və ictimai iaşə xidmətlərindən istifadə edən sakinləri Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargahın xüsusi karantin rejimi ilə bağlı qərar, tövsiyə və tapşırıqlarını yerinə yetirməyə, satıcılar və alıcılar arasında sosial məsafənin gözlənilməsinə, maskalardan istifadə edilməsinə, mütəmadi dezinfeksiya işlərinin aparılmasına ciddi riayət edilməsini tövsiyə edir, qaydalara əməl etməyənlərin inzibati qaydada məsuliyyətə cəlb ediləcəyini bildirirlər.

Şəhər ərazisində koronavirus infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində görülən işlər və həyata keçirilən tədbirlər sakinlər tərəfindən böyük razılıqla qarşılanır, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın ölkəmizdə koronavirus infeksiyasının yayılmasının və törədə biləcəyi fəsadların qarşısının alınmasına yönəlik tapşırıq və tövsiyələrinin yerinə yetirilməsinə böyük töhfə kimi dəyərləndirilir.

# “Gənclərimiz hər zaman dövlətimizin və dövlət başçımızın yanındadır”



**Şirvan şəhər Gənclər və İdman idarəsinin təkilatçılığı ilə keçirilən videokonfransda Şirvan şəhər Gənclər və İdman İdarəsinin rəisi Azər Quliyev, YAP Şirvan şəhər təşkilatının sədr əvəzi Paşa Nəbiyev, Şirvan şəhər İcra Hakimiyyətinin İctimai siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Samirə İsmayılova, Şirvan şəhər Heydər Əliyev Mərkəzinin direktoru Aynur Fərzəliyeva, Şirvan Gənclər Evinin direktoru Əfqan Həsənov və şəhərin ictimai həyatında fəallığı ilə seçilən gənclər iştirak edib.**




Videokonfransı giriş sözü ilə açan Şirvan şəhər Gənclər və İdman idarəsinin rəisi Azər Quliyev bu gün dövlət başçısının qayğısı ilə əhatə olunan Azərbaycan gəncliyinin öz liderinə inandığını, güvəndiyini və daim onun yanında olduğunu bildirib. Aparılan uğurlu siyasət nəticəsində Azərbaycan gəncliyinin mütləq əksəriyyətinin mövqeyinin nədən ibarət olduğu bəllidir. Bu mövqe ondan ibarətdir ki, Azərbaycan gəncliyi Prezident İlham Əliyevin siyasətini birmənalı şəkildə dəstəkləyir, onun yürütdüyü daxili-xarici siyasətə inanır.

Daha sonra YAP Şirvan şəhər təşkilatının sədr əvəzi Paşa Nəbiyev, Şirvan şəhər İcra Hakimiyyətinin İctimai Siyasi və Humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Samirə İsmayılova, Şirvan şəhər Heydər Əliyev Mərkəzinin direktoru Aynur Fərzəliyeva və Şirvan Gənclər Evinin direktoru Əfqan Həsənov çıxış ediblər.

Natiqlər son günlər ölkəmizin sərhəddində mənfur qonşularımızın törətdiyi təxribatlardan, ordumuzun cəsur zabit və əsgər heyətinin düşmənə layiqli cavab addımlarından və bu çətin günlərdə xalqın birliyindən danışıblar.

Bildirilib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında ordumuz vətənimizin müdafiəsində həmişə ayıq-sayıqdır, əsgərindən tutmuş ən yüksək rütbəli zabitinə qədər hər bir hərbçimiz vətən, torpaq yolunda canından belə keçməyə hazırdır.

Son döyüşlərdə qəhrəmanlıqla həlak olan general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev kimi yüksək hazırlıqlı zabitlərimizi itirdiyimizi xatırladan çıxışçılar onların və digər şəhidlərimizin qanının yerdə qalmayacağına inandıqlarını vurğulayıb.

Videokonfransda iştirak edənlər əminliklə bildiriblər ki, Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə yorulmadan, əzimlə mübarizə aparacaqlar. Eyni zamanda dövlətimizin zirvələrə doğru irəliləməsində bundan sonra da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin ətrafında sıx birləşəcək!

# Pandemiya dövründə Azərbaycanın dövlət siyasəti: uğurlar və perspektivlər

**Məlumdur ki, Azərbaycan dövlətinin koronavirusla mübarizə sahəsində apardığı ardıcıl əməli tədbirlər dəfələrlə müvafiq beynəlxalq qurumların və Ümumdünya Səhiyyə Təşkilatının hesabatlarında səmərəli nəticələri ilə gündəmə gəlmişdir. Bəşəriyyətin bütün sahələrinə agır zərbələr vurmuş pandemiya təhlükəsinin qarşısının alınmasında Azərbaycan cox nadir ölkələrdən oldu ki, insan sağlamlığı amilinin mühüm faktor olduğunu ən önəmli dövlət siyasəti olaraq qarşıya qoydu.**



Dövlətlərin hərəsi müxtəlif mübarizə üsullarından istifadə yolu seçsələr də son ayların əsaslı qənaətləri sübut etdi ki, pandemiya ilə mübarizədə dünyada Azərbaycan yolu mahiyyət etibarı ilə səmərəli nailiyyətlərin əldə olunması üçün xüsusi önəm daşımaqdadır. Ona görə də Azərbaycan dövlətinin əldə etdiyi təcrübə, onun təhlili və nəticələr cıxarılması birmənalı olaraq bəşəriyyət üçün cox əhəmiyyətli konsepsiyadır. Daha bir xususi önəm daşıyan fakt odur ki, Azərbaycan dövlətinin bu istiqamətdə hər bir qərarı xalqın iradəsi ilə xalqdövlət həmrəyliyinin mütəşəkkil birliyi ilə bir arada həyata kecirildi. Odur ki, Prezident İlham Əliyevin koronavirusla mübarizə sahəsində görülən tədbirlərin milli mənafeyə xidmət etməsini əhatə edən müraciətləri, cıxışları, onlardan irəli gələn vəzifələrin operativ həlli istiqamətindəki prinsipal addımları həm də sübut etdi ki, dövlətimiz qarşılaşdığı hər hansı problemin aradan qaldırımasında böyük gücə malikdir. Bütün bunların hazırkı mərhələdə geniş şərhini verən Prezident İlham Əliyev 2020-ci il 6 avqustda ölkədəki sosial-iqtisadi vəziyyətlə bağlı kecirdiyi müşavirədə öz tarixi nitqi ilə əldə olunmuş nailiyyətlərin əsaslarını şərh etdi və qarşıda duran vəzifələrin konkret hədəflərin istiqamətlərini müyyənləşdirdi.

Pandemiyaya qarşı mübarizənin müsbət nəticələrini şərh edən Prezident İlham Əliyev demişdir: “Koronavirusa qarşı mübarizə işində müsbət dinamika müşahidə olunur. İyulun 16-dan bu günə qədər bu müsbət dinamika deməyə əsas verir ki, görülmüş bütün tədbirlər müsbət nəticə verir. Bu tədbirlər nəticəsində vəziyyət bu günə qədər nəzarət altındadır. İyulun 16-dan bu günə qədər yoluxanların sayı sağalanların sayından xeyli aşağıdır” .

Vəziyyət hər an nəzarət altında saxlanılması, lazımi qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində az itkilərlə cıxmaq məhz cox gərgin mübarizənin nəticəsində mümkün olmuşdur. Burada həkimlərimizin çox böyük əməyinin və fədakarlığının olmasını cənab Prezident xüsusi olaraq vurğulamışdır. Xəstələrin sayı artarkən qısa zamanda dövlət tərəfindən müasir xəstəxanaların istismara verilməsini cox mühüm addım kimi qiymtləndirmişdir.

Pandemiya dövründə sosial dəstək layihələrinin uğurla icra edilməsini isə cənab Prezident belə qiymətləndirmişdir: “Ölkəmizdə çox böyük sosial layihələr həyata keçirilir və 2020-ci ildə bu layihələrin həcmi rekord həddə çatıb. Bu il rekord sayda məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunacaq. Bu il bu imkandan 7 mindən çox köçkün ailəsi faydalanacaq. Ordu sıralarında qüsursuz xidmət etmiş 400-dən çox hərbçi dövlət tərəfindən pulsuz mənzillərlə təmin olunacaq”.

Bu yaxınlarda Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak edərkən də dövlətimizin başçısı qeyd etdi: “Müqayisə üçün deyə bilərəm ki, keçən il 934 mənzil verilmişdir, bu il isə 1500, ondan əvvəlki illərdə təqribən ildə 500-600-700. Yəni, bu, onu göstərir ki, bu problemi həll etmək və şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən nəzərdə tutulmuş evlərin təqdim edilməsi üçün çox fəal iş aparılır. Mən istəyirəm ki, biz bu proqramı tezliklə başa çatdıraq və buna nail olacağıq”;

Bu gün hər bir Azərbaycan vətəndaşına məlumdur ki, Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların minik avtomobilləri ilə təminatı da diqqətdə saxlanılır. Prezident İlham Əliyevin xüsusi qayğısı nəticəsində bu istiqamətdə tədbirlər geniş vüsət alır. Prezident İlham Əliyevin 21 iyul 2020-ci il tarixli Sərəncamı ilə ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar əlilliyi olmuş, Çernobıl AES-də qəza nəticələrini aradan qaldırmaqda iştirak edib əlilliyi olmuş şəxslərin, II Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulanların xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillərlə təminatının daha da gücləndirilməsinə şərait yaradılır. Sərəncamla bu məqsədlə Prezidentin ehtiyat fondundan 2 milyon 878 min 20 manat ayrılması da dayanıqlı sosial siyasətin təzahürüdür.

Bunların fonunda Qarabağ müharibəsi əlilləri əlilliyə görə aylıq sosial müavinət və ya əmək pensiyası ilə yanaşı, Prezidentin aylıq təqaüdləri ilə də təminin edilməsi, ünvanlı dövlət sosial yardımının, sosial xidmətlərin,ərzaq payları, məşğulluq və sosial rifaha dəstək tədbirlərinin, özəl sektor üzrə məşğulluğun tənzimlənməsi kimi tədbirlərin ardıcıl həyata kecirilməsi cox muhum nailiyyətlər sirasında xarakterizə edilməlidir.

Cənab Prezidentimiz nitqində muqayisələr apararaq bildirmişdir : “Bəzi inkişaf etmiş ölkələrdə iqtisadi tənəzzül 10 faiz, 14 faiz, 20 faiz, ondan da çoxdur. Əlbəttə ki, bu ölkələrə baxdıqda bizdə vəziyyət daha yaxşıdır. Ancaq yenə də iqtisadi inkişafımız gücləndirilməlidir. Bu ilin sonuna qədər görüləcək işlər, xüsusilə, sahibkarlıqla bağlı olan işlər, eyni zamanda, dövlət şirkətlərinin idarə edilməsi istiqamətində atılacaq addımlar bu iqtisadi canlanmanı təmin etməlidir, itkiləri azaltmalıdır”.

Cənab Prezdentin fikirləri bir daha subut edir ki, pandemiya ilə mübarizədə düşünülmüş, gələcəyə planlaşdırılmış dövlət siyasəti davamlı olacaqdır.

**A.Fərzəliyeva,**
**Heydər Əliyev Mərkəzinin direktoru**

## ƏSGƏR MƏKTUBU



# HƏRBİ AND İÇDİK

**Şəhərimizdən ayrılıb hərbi hissəyə gəlib xidmətə başladığımızdan 1 aydan çox vaxt ötüb. Mənfur düşmənlərimiz ermənilərin iyulun 12-də Tovuz rayonu istiqamətində hücumu günlərində biz -orduya yenicə çağırılmış gənclər hadisələrin gedişini diqqətlə izləyirdik. Açığını deyim ki, təcrübəli əsgərlərimizlə yanaşı biz də döyüşə getmək istəyirdik. Ancaq bizə deyirdilər ki, sizin üçün hələ tezdir. Hər şeyin vaxtı var. Siz hərbi döyüş texnikasından istifadəni öyrənin.**

Azğın düşmən Tovuz rayonu istiqamətində geri oturduldu. Şəhidlər də verdik. Dinc əhalidən düşmən gülləsinə tuş gələnlər də oldu. Onlara Allahdan rəhmət diləyirik. İnanırıq ki, onların qanı yerdə qalmayacaq.

Əsgərlik günləri davam edir. Bu yaxınlarda hərbi and da içdik. İşğal olunmuş torpaqlarımızı düşməndən təmizləyəcəyimizə, suverenliyimizi qoruyacağımıza and içdik. Buna görə biz komandirlərimiz tərəfindən qarşımıza qoyulan hər bir tapşırığı layiqincə yerinə yetirməyə çalışırıq. Təcrübəli əsgər yoldaşlarımız da bu işdə bizə yaxından kömək edirlər.

Ordumuz müasir döyüş texnikası ilə təmin olunub. Onları bacarıqla idarə etmək üçün əlimizdən gələni əsirgəmirik.

Hərbi hissədə biz əsgərlər üçün hər cür şərait yaradılmışdır. Kazarmalar səliqəli, rahatdır. Lazımınca qidalanırıq, istirahətimiz üçün əlverişli şəraitimiz var.

Bunları deməkdə məqsədim budur ki, burada əsgər üçün hər cür şərait yapadılmışdır. Respublikamızın müxtəlif regionlarından çağırılmış gənclərlə hər bir çətinliyi dəf etməyə hazırıq. Azğın düşmən dərk etməlidir ki, Azərbaycanın Milli Ordusunda xidmət edən əsgər və zabitlər cəsur, qorxmaz, mərddirlər. Onlar yaxın vaxtlarda işğal altında olan torpaqlarımızı azad edəcəklər. Dağlıq Qarabağda Azərbaycan bayrağı dalğalanacaq. Çünki torpaqdan pay olmur. Ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin əmrini gözləyirik. Bu əmri vaxtında, dəqiq yerinə yetirməyə hazırıq.

**Həmid AĞAYEV,**
**əsgər**

## “İŞIQ” - 2020
## ƏZİZ OXUCULAR!

2020-ci ilin II yarısı üçün Şirvan şəhərinin ictimai-siyasi qəzeti «İŞIQ»a abunə yazılışı davam edir.
6 aylıq abunə haqqı 14 manatdır.
«İşıq»a KAPİTAL BANKIN Şirvan şəhər filialında və 6 saylı regional mətbuatı yayımı idarəsində yazılmaq olar.
H\ h- AZ39AIIB 33060019444100281141.
VÖEN -2100104521. İndeks 66858
«İşıq»a- öz qəzetinizə abunə yazılmağı unutmayın!

# CƏMİYYƏT YARDIMLARINI VƏ KÖMƏYİNİ DAVAM ETDİRİR





**Şirvan şəhər Qızıl Aypara Cəmiyyəti bu il müqəddəs Qurban bayramında xeyirxahlıq göstərərək Şirvan şəhər İcra Hakimiyyətinin və Şirvan şəhər Qızıl Aypara Cəmiyyətinin qeydiyyatında olan onlarla ailəyə hər biri 2 kq olmaqla Qurban payı yardımı etmişdir. Bu yardım Qarabağ veteranlarına, tənha kimsəsizlərə, həssas qrupdan olan insanlara verilmişdir.**

Həmçinin bu günlərdə I qrup əlil olan Abbasov Səxavət Abbasəli oğlunun əlil arabası üçün müraciəti müsbət həll olunmuşdur. Şirvan şəhər İcra Hakimiyyəti və şəhər Qızıl Aypara Cəmiyyəti bu müraciətə də həssaslıqla yanaşaraq həmin şəxsi funksional əlil arabası ilə təmin etmişlər.

Arabanın təqdim edilməsində Şirvan şəhər İcra Hakimiyyəti başçısının müavini Elmira Ağayeva , Şirvan şəhər Qızıl Aypara Cəmiyyətinin sədri Ülviyyə Balayeva I qrup əlil Səxavət Abbasova yaşadığı mənzildə əlil arabası təqdim etmişlər.

S.Abbasov və ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

**Gülbikə KƏRİMOVA,**
**Qızıl Aypara Cəmiyyəti Şirvan şəhər təşkilatının gənclər üzrə təlimatçısı**

# "İnformasiya müharibəsi şəraitində adekvat davranışın vacibliyi"

**11 avqust 2020-ci il tarixdə Şirvan şəhər Gənclər və İdman idarəsinin təkilatçılığı ilə "İnformasiya müharibəsi şəraitində adekvat davranışın vacibliyi" mövzusunda onlayn videokonfrans keçirildi.**

Konfransı giriş sözü ilə açan Şirvan şəhər Gənclər və İdman idarəsinin rəisi Azər Quliyev bildirdi ki, iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri növbəti dəfə təxribata əl ataraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində mövqelərimizi ələ keçirtməyə cəhd göstərib. Lakin ordumuz düşmənin layiqli cavabını verərək geri çəkilməyə məcbur etmişdir. Ermənistanın bu hücum cəhdi və silahlı təxribatı Azərbaycan ictimaiyyəti tərəfindən hiddətlə qarşılandı. Hər bir şəxs öz vətəndaşlıq mövqeyini açıq aşkar göstərdi. Bu gün bizi ciddi narahat edən digər bir məsələ Ermənistanın informasiya məkanında törətdiyi təxribatla bağlıdır. Ermənistan kimi mənfur və çirkin əməllər sahibi olan ölkə ilə mübaribədə hamımız ehtiyatlı və sayıq olmalı, təxribatdolu informasiyaların bolluğu şəraitində ancaq rəsmi məlumatlara istinad etməliyik.

Birinci vitse- prezident Mehriban xanım Əliyevanın "Hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir. Nəinki döyüş meydanında, həm də kompüter qarşısında" söylədiyi fikirlərə qoşularaq hər birimiz dövlətimizin yanında olmalıyıq, istər döyüş meydanında, istərsə də informasiya müharibəsində dövlətimizi, vətənimizi qorumalıyıq.

Daha sonra Şirvan şəhər İcra Hakimiyyətinin İctimai Siyasi və Humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Samirə İsmayılova, Şirvan şəhər Təhsil şöbəsində Metodkabinetin müdiri Elçin Həsənov, "Səs" İnformasiya Agentliyinin bölgə nümayəndəsi İqbal Mikayılov və "Odlar yurdu" Gənclər İctimai Birliyinin üzvü, ictimai fəal gənci Qamət Əliyev çıxış etdilər.

Çıxışçılar son günlər ölkəmizin sərhədində mənfur qonşularımızın törətdiyi təxribatlardan, bunun fonunda sosial şəbəkələrdə gedən "informasiya müharibəsindən" bəhs etdilər. Cəmiyyətimizi, gənclərimizi, xüsusilə, mətbuat nümayəndələrini, sosial şəbəkə iştirakçılarını, xaricdə yaşayan soydaşlarımızı, hər bir vətəndaşımızı və bütün ictimai fəalları bu cür təxribatlara uymamağa çağırdılar.

Düşmənlə müharibə şəraitində olan xalqımızı, vətəndaşlarımızı təmkinli, səbrli olmağa, belə həssas və ağır zamanda hamını ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşməyə, ordumuza dəstək olmağa səslədilər.

# «YOLUM DOXSANADIR»

## YAZAN ŞAİRİN YENİ KİTABI



*İbrahim YUSİFOĞLU,*
*AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitunun əməkdaşı*

**Həyatın bütün sahələrində olduğu kimi qələm sahiblərinin də 2020-ci ildə arzu və istəkləri, görəcəkləri işləri, yazıb tamamlayacaqları əsərləri, oxucularına çap etdirib təqdim edəcəkləri kitabları qəlblərdə özlərinə yer tapmışdır. Lakin, dünyanın bəlasına çevrilən bədnam koronavirus bir çox arzuları, istəkləri yarımçıq qoydu. Adamlar arasında özlərinə qarşı inamsızlıq yarandı, hər hansı bir işin həyata keçirilməsi üçün gözləmə mövqeyi tutuldu.**

Ancaq, bir çox qələm sahiblərinə koronavirus güc gələ bilmədi, onların ilhamla çağladığı qələmləri yazdı, yazılanları isə kitablar halında oxuculara çatdırdılar.

Bu günlərdə Şəmkir şəhərindən olan, ömrünün 80-ci baharını yaşayan, ondan artıq şeirlər kitabının müəllifi Yaqub Salman «Müəllim» nəşriyyatında nəşr olunan «Süleyman» adlı 316 səhifəlik şeirlər kitabını mənə hədiyyə göndərmişdir. Doğrusu, ömrün bu zirvəsində yaşayan, ürəyi yazıb-yaratmaq həvəsiylə alışıb-yanan Yaqub Salmanın bu işgüzarlığını və cəsarətini alqışladım, kitabdakı şeirləri oxudum, bu kitab haqqında olan fiikrlərimi oxucularla bölüşmək istədim.

Əvvəlcə sizlərə Yaqub Salman haqqında qısaca da olsa məlumat verməк istəyirəm:

Yaqub Salmanın (Yaqub Süleyman oğlu Salmanov) adını eşitsəm də, şeirlərini mətbuatdan oxucam da, ancaq özü ilə şəxsi tanışlığım yox idi. «Kaspi» qəzetinin jurnalist əməkdaşı olan oğlu Hüquq və nəvəsi ixtisasca ingilis dili müəllimi olan Fidan Salmanlı ilə tanışlığımızdan sonra şairin müxtəlif illərdə çap olunan şeir kitablarını oxumuşam, onun rəngarəng və çoxşaxəli yaradıcılığının şahidi olmuşam.

Yaqub Salman 1939-cu ildə Şəmkir şəhərində anadan olmuş, ömrünün 60 ilini müxtəlif vəzifələrdə işləmiş, eyni zamanda daxili ilham mənbəyindən qaynaqlanın yardıcılıqla da məşğul olmuşdur. İlk şeirləri Şirvan şəhərində «İşıq» qəzetində nəşr olunsa da, sonralar şairin yüzlərlə şeiri respublikamızda fəaliyyət göstərən nəşriyyat evlərində kitab şəklində çap olunmuş, oxucular tərəfindən maraqla qarşılanmışdır. Onun şeir kitablarının ön söz müəllifləri xalq şairi, əməkdar incəsənət xadimi Nəriman Həsənzadə, Əməkdar jurnalist Tofiq Hüseyn və digər tanınmış ədəbiyyat nümayəndələridir.

«Gözəllərin izi ilə» adlı şeirlər kitabının ön sözündə N.Həsənzadə yazır:

«Yaqub Salman əsl şairdir. Həyata, insana onu əhatə edən mühitə şair gözü ilə baxır, şair kimi də təsirlənir.

...Kaloritli, milli olduğu qədər də təzə nəfəsdir, mehr-ülfətə çağırışdır. Lakin, bu çağırış qışqırıq deyil. Millətə müracəit edəndə də şair qışqırmamalı, ata-bala kimi danışmalıdır. Poeziyanın dili budur!

...Yaqubun qələmə aldığı saysız-hesabsız yazılar bir daha göstərir ki, şeirimiz təkcə paytaxt Bakıda deyil, bütün Azərbaycanda yaranır, yayılır və gənc nəsillərə ötürülür. Onun yazdıqları doğma Azərbaycan şeiridir».

Ömrünün 80-ci ilini başa vuran, oxucularına «Süleyman» adda yeni kitabını bəxş edən yazar hazırda Şirvan şəhərində yaşayıb, fəaliyyət göstərir. Qəlbi hələ də yeni fikirlərlə aşıb-daşır, yeni bədii yazıları ilə oxucuların qonağı olur, müdrik hislərdən yoğrulmuş şeirləri həvəslə oxunur, hərarətlə qarşılanır.

Yaqub Salman «Süleyman» adlı kitabındakı şeirlər «Bildiklərim, düşündüklərim», «Vətən-ana», «Təbiətin qoynunda», «Gözəllər olan yerdə», «İthaflar» adlı yarımbaşlıqlar altında toplanmışdır. Onu da qeyd etməliyəm ki, Yaqub Salmanın şeirlərinin əsas mövzusunu Vətən sevgisi, ana məhəbbəti, təbiətə vurğunluq, məhəbbət duyğuları, insanların mənəvi dünyası və körpə balalara sonsuz sevgi təşkil edir. İstər bir bəndlik, istərsə də qismən iri həcmli şeirlərində şair vətəninə olan məhəbbətini sonsuz sevgisi ilə ifadə edir. «Şəmkir» adlı şeirində şair uşaqlığında göz açdığı, qoynunda addımladığı, elini -obasını həm şair qələmiylə, həm də rəssam fırçasıyla tərənnüm edir:

**Hər qonağın hörmətini tutardı,**
**Əhvalına yeni fərəh qatardı.**
**Yay gələndə isti vurdu, utandı.**
**Yanaqları lap közərdi Şəmkirin**

Ömrünü-gününü təbiətin qoynunda keçirdiyindən şair «Təbiət düşünür», Payız lövhələri», «Kəpəz», «Dəli Kür», «Bənövşə», «Dağda payız», «Çərşənbə» kimi təbii, poetik tablolar yaratmışdır.

**Yaman fikirlidir alim təbiət,**
**Sanki bir yenilik kəşf edəcəkdir.**
**Yoxsa, əzab çəkir hakim təbiət,**
**Ağır cinayəti əfv edəcəkdir.**

Dünyanın gözəllik məskənləri çoxdur. Bu gözəllikləri daha da ecazkar edən el gözəlləridir. Bu gözəllər varsa, sevgi də var, məhəbbət də... Şeir də var, tərənnüm də...

Kitabın «Gözəllər olan yerdə» bölməsində toplanan şeirlər gözəlliyi duyan, aşiqin şıltaqlıqlarına dözən, «sevgidə yaşın fərqi yoxdur» qənaətinə gələn, ömür-gün yoldaşına «Qədrini bilmədim» etiraf şeiri yazan Yaqub Salmanın bu mövzuda nə az, nə çox düz 50 adda şeirləri toplanmışdır.

«Məhəbbət» şeiri qəlbində məhəbbət qığılcımı yanan hər bir sevənə yol göstərir:

**Dilin təpilirsə qızı görəndə,**
**Həyəcan həddini aşdısa , qardaş.**
**Ürəyin çırpınıb, dizin əsirsə.**
**Dinəndə sözünü çaşdınsa, qardaş,**
**Məhəbbətdi o...**

«Süleyman» kitabının «İthaflar» bölməsindəki şeirlərdə şair qəlbinin hərarətindən, səmimiyyətindən, arzu və istəyindən doğan şeirlər toplanmışdır. Kitabın əvvəlində və sonunda kitabın adını daşıyan sonbeşik nəvəsi Süleymana ithaf etdiyi «Vətəni qoruyaq», «Yazılmamış dəftər», «Süleyman», qızı Yeganəyə yazdığı «Yeganə», «Qızım», «Qızıma», oğlu Ülviyə həsr etdiyi «Qoru dostunu» kimi şeirlərində ata, baba-ağsaqqal öyüdləri qələmə alınmışdır:

**Könül rişələnir, dünya mənimdir,**
**Yanan ocağına adını qoydum**
**Sonbeşik nəvəmə rahatam indi**
**Atam Süleymanın adını qoydum.**

***

**Göz yaşı bir üzü, sevinc bir üzü,**
**İşi dünyamızın oyundu, qızım.**
**Dünən qucağımda dəcəl bir quzu.**
**Bu gün çal-çağırın, toyundu, qızım!**

***

**Barışa yol qoyun, savaşanda da,**
**Hər dava ayrılıq davası deyil.**
**Hər il bir budaqda qurmaq olmayır.**
**Ailə sağsağan yuvası deyil.**

***

**Hesab edir hər el-oba,hər diyar.**
**Dostu ata, dostu ana, dostu yar.**




**Qoy desinlər: - Ülvi kimi dostu var.**
**Qoru bala, yaxşı qoru dostunu.**
**Yaxşı qoru dostunu!**

Şeirlərinin hər birində övladlarının timsalında bütün insanlara xeyirxahlıq aşılanır.

Yaqub Salmanın «Mənim loğman nənəm», «Zəlimxan», Milli Məclisin üzvü akademik Rəfael Hüseynova ithaf etdiyi «Dəyanət ola» şeiri, «Dosta məktub», «Ələskər», «Müəllim», «Səməd Vurğun» kimi ünvanlı şeirlərində gözəl deyim tərzi, düzlük, haqqədalətin açıq şəkildə söylənilməsi öz əksin tapmışdır.

**Hər zaman od olan yanmağa canda,**
**Gərər qanadını ən ağır anda.**
**Səməndər quşutək dərs danışanda,**
**Alışar müəllim, yanar müəllim.**
**(«Müəllim»)**

«Süleyman» kitabının ilk səhifəsində ömrünün əlli ildən çoxunu «İşıq» qəzetinin kollektivinin Yaqub Salmanova ünvanlıdığı təbrik məktubuna qoşulub, öz əlavəmizi etməklə deyirik: «Yaqub Salmanovun 80 yaşı tamam olub. Yaxınları, dostları, Yaqubsevərlər bu sevincli gün münasibətilə yubilyarı təbrik edirlər. Biz də «Süleyman» adlı iri həcmli kitabını da qeyd etməklə bu təbriklərə qoşuluruq.

Qələm dostumuz, 80 yaşın və yeni kitabın mübarək!

«Doxsana gedən yol» şeirində yazdığın kimi:

**Yolum doxsanadır,deyim hər kəsə.**
**Hələ ki, odu var, sönməyib ocaq.**
**Mən kiməm özümdən uyduram nəsə.**
**«İlham» deyənləri yazıram ancaq!**

**«ƏDALƏT» qəzetinin 4 iyul 2020-ci il tarixli sayı**

## ŞİRVAN MƏTBUATI - 90

# QƏZETLƏRİMİZİN REDAKTORLARI

### 3. Əvəz İbrahimov



**Əvəz İbrahimov 1947-1948-ci illərdə «Pambıq zərbəçisi» qəzetinin redaktoru işləyib. Bir ildən çox bu vəzifədə çalışıb. 1999-cu ildə «Əli Bayramlı mətbuatı» kitabını çapa hazırlayarkən onu tanıyanlarla həmsöhbət olduq. Uzun illər müəllim işləmiş rəhmətlik Bayram Rəhmov Ə.İbrahimov haqqında səmimi sözlər söylədi. Dedi ki, Əvəz müəllimlə həmkar idik.O vaxtkı Əli Bayramlı rayonunun Qaratoğay və Qargüney məktəblərində onunla müəllim işləmişəm. Əsl ziyalı, cəfakeş müəllim idi. İstər müəllimlərin, istərsə də şagirdlərin dərin hörmətini qazanmışdı. Bacarığı, işgüzarlığı nəzərə alınıb o Əli Bayramlı rayon maarif (indiki Təhsil şöbəsi) şöbəsinin müdiri təyin olundu. Böyük Vətən müharibəsindən sonra yenidən pedaqoji fəaliyyətini davam etdirdi. 1947-ci ildə o rayon qəzetində redaktor idi.**

1999-cu ildə Əvəz müəllimin bacısı qızı Xuraman xanım və oğlu Əzizlə də görüşdüm.Həmsöhbətlərim əzizləri haqqında bəzi məqamlarla məni tanış etdilər. Bacısı qızı dayısının hədsiz qohumcanlı, başqalarına qarşı həssas, diqqətli olduğunu söylədi.

Oğul Əziz dedi ki, atam 1995-ci ilə kimi (haqq dünyasına qovuşana kimi) müəllimliyindən ayrılmadı. Söhbət zamanı dəfələrlə dediyi bir fikri heç vaxt unutmayacağam. Dedyirdi ki, müəllim kimi müqəddəs peşə yoxdur. Çox vəzifələrdə işləmişəm. Amma müəllimlikdən aldığım zövqü heç nə ilə dəyişə bilmərəm.

Atam 82 il ömür yaşadı. «Pambıq zərbəçisi»ndə çalışdığı günlərdən də arabir söz salırdı. Deyirdi ki, qəzet çox məsuliyyətli işdir. Tərif də, tənqid də yazanda gərək obyektiv olasan. İnsanlar haqsız tənqidi, necə deyərlər, boğazdan yuxarı tərifi də qəbul etmirlər. Atam deyirdi ki, mən və rəhbərlik etdiyim əməkdaşlar nəinki «Pambıq zərbəçisi»ndə hətta respublika mətbuatında maraqlı, ciddi yazılarla çıxış edirdik. Oxucu təşəkkürü bizim üçün hər şeydən üstün idi.

Əvəz İbrahimov ömrünün sonuna kimi müəllim işləyib. Respublikanın Əməkdar müəllimi kimi fəxri ad alıb. Dərs dediyi şagirdləri də onu xoş xatirələrlə xatırlayırlar.

**F.RƏHİMOV**

## Sənin kitab rəfin

# “SƏMAVİ DİNLƏRİN ORTAQ DƏYƏRLƏRİ”

**Şirvan şəhərinin yetirməsi-Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbənin tərkibində Dini təhsil sektorunun müdiri, I dərəcəli dövlət qulluqçusu Tural Əliyevin “SƏMAVİ DİNLƏRİN ORTAQ DƏYƏRLƏRİ” adlı kitabı Komitənin razılıq məktubuna əsasən Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə vəsaiti hesabına 3000 tirajla çap edilmişdir. (Bakı “Tuna”2018)**




**“Ön söz”də** müəllif kitabın yazılması məqsədinə aydınlıq gətirir, onun əsas məzmun istiqamətləri ilə oxucuları tanış edir.

Kitab ümummilli lider Heydər Əliyevin dini dözümlülük haqqında məşhur sözləri ilə başlanır:

***“İnsanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kimsəyə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar”.***

Daha sonra müəllif “din”, “dini etiqad azadlığı” anlayışlarına aydınlıq gətirmiş,dünya dinlərinin təsnifatı haqqında məlumat verməklə, özünün qənaətini sxem şəklində ifadə etmişdir.

Müəllif səmavi dinlərin ortaq dəyərlərindən bəhs etməzdən əvvəl səmavi dinlərin fəqli və ümumi cəhətləri, əsas xüsusiyyətləri haqqında da oxuculara məlumat verməyi lazım bilmişdir.

Bu bölümdə fikirlərini yekunlaşdırarkən müəllif səmavi dinlərin sonuncu kitabı olan **“Quran”**da digər səmavi dinlərə münasibətin ifadəsini də diqqətə çatdırır:

***“Allahdan başqa allah yoxdur. Əzəli, əbədi varlıq Odur. Sənə özündən əvvəlkiləri (səmavi kitabları) təsdiq edən Kitabı (Quranı) haqq olaraq O nazil etdi. Tövratı da, İncili də O endirdi” (“Ali İmran” surəsi, 2-3)***

***“Deyin: Biz Allaha iman gətirdik, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yaquba və əsbata(nəsillərinə) nazil olanlara, Musaya və İsaya göndərilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə göndərilənlərə inandıq. Biz onların heç biri arasında fərq qoymadıq. Biz özümüzü Ona təslim etmişik.”*** (“Əl-Bəqərə” surəsi,136)

Kitabın əsas məzmunu səmavi dəyərlərin ortaq dəyərlərinin müqayisəli araşdırılmasına həsr edilmişdir. Kitabın yazılma məqsədinə uyğun olaraq ən mühüm dini-əxlaqi dəyərlərə münasibətin əsas cəhətləri hər üç səmavi dində müqayisəli şəkildə izah edilmişdir.

Kitabda ədalətli, mərhəmətli, səbrli olmaq, şükr etmək, təmkinlilik, valideynlərə ehtiram və qayğı ilə yanaşmaq, qonşu haqlarına riayət etmək, yalan danışmamaq, əmanətə xəyanət, oğurluq, zina etməmək, öldürməmək, təkəbbürlənməmək kimi dəyərlərə səmavi dinlər kontekstində aydınlıq gətirilmişdir.

Müəllif hər bir dini dəyərin lüğəti mənasına aydınlıq gətirməklə onun sosial məzmununa aydınlıq gətirir, fikirlərini **“Qurani-Kərim”in** müxtəlif surə və ayələrindən gətirilmiş nümunələrlə əsaslandırır, fikirlərini Xristianlıq Yəhudiliyin dini kitablarından gətirdiyi nümunələrlə bu dəyərlərin bütün səmavi dinlər üçün ortaq olduğunu əsaslandırır.

Müəllif səmavi dinlərin ortaq dəyərləri haqqında qənaətini belə əsaslandırır: *“Üç böyük səmavi din-Yəhudilik, Xristianlıq və İslamın fərqli yönləri ilə yanaşı, heç şübhəsiz bir çox ortaq inancları, ibadətləri, əxlaqi dəyərləri, ortaq cəhətləri vardır. Bu üç monoteist dinin əxlaq prinsiplərindən bir çoxu sadəcə onlara məxsus olmaqla qalmayıb, artıq ümumbəşəri dəyərlərin tərkib hissəsinə çevrilmişdir.”*

Müəllif əxlaqi dəyərlər sırasında, öncə, ən mühüm ümumbəşəri dəyər olan “ədalətli olmaq” anlayışına aydınlıq gətirir. Bu bölmə Nizami Gəncəvidən gətirilmiş epiqrafla başlanır:

*“Dünyaya hakim olmaq zülmkarlıq,rəzalət,*
*Yer üzünün fatehi ədalətdir, ədalət!”*

Daha sonra “ədalət” sözünün lüğəti mənasına və “ədalətli olmaq” anlayışlarına aydınlıq gətirilib: “Ədalət” “ədl” sözündən olub, ərəb dilində bərabərlik və insaflı mənalarını daşıyır... Dində ədalət zülmkarlığın ziddinə olan bir kəlmə olub, “hər kəsin haqqını özünə vermək” və “hər şeyi öz yerinə qoymaq” kimi mənalarda işlənir.”

Sonra müəllif **“Qurani-Kərim”in** 9 surəsində “ədalət” anlayışının keçdiyini qeyd edərək surələrdən nümunələr gətirir, bu anlayışı İncil və Tövratdakı nümunələrlə müqayisə edərək onların ortaq dəyərlər olduğunu əsaslandırır:



***“Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir”.. (“ən-Nisa” surəsi, 58)***

***“Ey iman gətirənlər! (Şahidliyiniz) sizin özünüzün, ata-ananızın, yaxud qohumlarınızın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan Allah şahidi olun”... (“ən-Nisa” surəsi, 135)***

Müəllif ədalət haqqında fiikirlərinə Tövratdan gətirdiyi nümunə ilə yekun vurur:

***“Ədalətsiz qanun qoyanların, yoxsullardan ədaləti əsirgəyənlərin, xalqımın kasıblarının haqqını əlindən alanların, dul qadınları soyanların, yetimlərin malını ələ keçirənlərin vay halına!”(“Yeşaya”, 10; 1-2)...***

Digər ortaq dəyərlər də bu ardıcıllıqla təhlil olunub.

Kitabın sonunda verilmiş “Nəticə” hissəsində müəllif ümumiləşdirmələr apararaq bəşəriyyətin gələcək dini modeli haqqında mülahizələrini ifadə edərək,Azərbaycanda mövcud olan tolerantlıq modelini multikultural dəyərlərin faydalılıq əmsalını yüksəldən amil kimi dəyərləndirir.

Müəllif səmavi dinlərin ortaq dəyərlərinin nə vaxtsa birləşəcəyinə, bəşəriyyətə sülh, əmin-amanlıq və ədalət bəxş edəcəyinə inamını ifadə edərək kitabı Hüseyn Cavidin məşhur sözləri ilə tamamlayır:

*“Kəssə hər kəs tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü!”*

Kitabın sonunda verilmiş ədəbiyyat siyahısı və internet resurslarının linklərindən istifadə etməklə oxucu onu düşündürən və maraqlandıran suallara ətraflı cavab tapa bilər.

İnanırıq ki, bu kitab geniş oxucu kütləsinin marağına səbəb olacaq. Kitabdan ümumtəhsil məktəblərində mənəvi dəyərlərimizin təbliğinə həsr olunan tədbirlərdə, sinif saatlarında da istifadə oluna bilər.

***Tural Əliyev barədə söz ardı.***

Tural Rəfael oğlu Əliyev 1982-ci ildə indiki Şirvan şəhərində anadan olmuşdur. 13 nömrəli tam orta məktəbin məzunudur.

Bakı Dövlət Universitetinin ilahiyyat fakültəsini (2004-cü il) fərqlənmə ilə bitirərək ilahiyyatçı, ərəb dili müəllimi ixtisasına yiyələnib. Hərbi xidməti başa vurduqdan sonra Şirvan şəhər Mədəniyyət və Turizm şöbəsində, Azərbaycan Respublikasının Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinə Cənub bölgəsi şöbəsində çalışmışdır.

T.Əliyev 2015-ci ilin oktyabr ayında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komitəsinin keçirdiyi ümumi müsabiqənin nəticəsinə əsasən Dini qurumlarla iş üzrə şöbəyə aparıcı məsləhətçi vəzifəsinə təyin olunmuşdu.

T.Əliyev 3 fevral 2020-ci il tarixdə Dövlət imtahanı Mərkəzi tərəfindən müsabiqənin nəticəsinə əsasən Dini qurumlarla iş üzrə şöbəsi tərəfindən Dini təhsil sektorunun müdiri vəzifəsinə təyin olunmuş ona 1-ci dərəcə dövlət qulluqçusu ixtisas dərəcəsi verilmişdir. Hazırda həmin vəzifəni icra edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 23 iyun 2020-ci il tarixli sərəncamı ilə Tural Əliyev “Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilmişdir. Ərəb, fars, ingilis, rus və türk dillərini bilir.

Həmşəhərlimizə yeni-yeni uğurlar arzulayırıq.

**“İŞIQ”**

HEKAYƏ

# Xəcalətli kəlmə

**Hələ dadını bilmədiyim meyvə ağzımı sulandırdı. Evimizdə ondan heç vaxt olmayıb. Süfrədəki təamlara baxanda gözüm qamaşırdı. Hər cür meyvə, rəngli şokoladlar, tərəvəzlər...**

Anam sevincək meyvələri doğrayır. Ağzımın sulandığını hiss edib əlindəki sarı sulu meyvə dilimini mənə uzadır. Barmaqlarından damcılayan şirəsi süfrənin yırtığından keçib masanın partlamış boyasının arasında yox olur. Şor, makaron, vermeşel dadına alışmış dilimə adı da yad idi: A-na-nas...

Anam içi dolu boşqabı mənə tərəf sürüşdürür. Boşqab da anam kimi sevincək olub. Üstündəki basma güllərə də təravət gəlib. Çatlamış sinəsini portağal dilimləri altında gizlədərək alnı açıq, üzü ağ dayanıb qarşımda.

Ürkək xəyallarım rəngarəng bəzənmiş yırtıq süfrəmizdə əl -ələ verib, qarşımda cəsarətlə dayanıb. Bizim xəyaldan başqa heç nəyimiz olmayıb bu günəcən. Bu otaq, altımdakı ayaqları tel ilə bərkidilmiş stul, yatdığım paslı çarpayı, əynimdəki süzülmüş paltarlar belə başqasının olub həmişə. Anamın ordan-burdan tapıb gətirdiyi köhnə paltarlarla böyüyür mənim uşaqlığım...

Anam başqasının künə otağını müvəqqəti özümüzünküləşdirə bilməyimiz üçün hər ay 150 manat pul ödəyir. Mənsə bu otaqda nəfəs ala bilməyimiz üçün anamın nəfəsinə həsrət qalıram. Axşamlar isti qucağına sığınıb yatdığım anam mən yuxudan oyananda çoxdan getmiş olur. Başqa uşağa analıq etmək üçün. O gələnəcən mənim bumbuz qucağımı isti ürəyimin nəfəsi, bir də saf xəyallarım qızdırır. Soyuq qış günlərini adyala bürünərək çürük taxta çərçivəli pəncərənin önündə dirsəklənib gözümü yollara zilləyirəm. Yalvarıram yollara, anamı tez qaytarsın deyə. Yollar anamı gətirənə qədər qış küləyi pəncərənin dəlik-deşik yerlərindən üzümə üfürür, qulağıma fısıldayır. Analarının əlindən tutub həyətdə gəzişən uşaqlara, onların velosipedlərinə, skuterlərinə, bəzəkli ayaqqabılarına, dəbli geyimlərinə baxıb köks ötürmürəm. Bilirəm ki, mənim heç vaxt onlarınkı kimi şən uşaqlığım, onların isə mənimki kimi zəngin xəyalları olmayacaq...

Hərdən çarpayımın baş ucundakı tumbanın üstünə əlimi uzadıram. Anamın isti qalsın deyə yun şalla bükdüyü qırmızı, üzərində qara xalları olan qazançanı açıram. Bir-birinə yapışmış makaronları ovuclayıb yeyirəm.

Bir gün təzə ayaqqabılarımın olacağını sadəcə xəyal etmişdim. Bu gün tanımadığım bir adam mənə bir cüt ayaqqabı alıb.



**Nəsibə NƏSİBQIZI**

Anam qutunu tumbanın üstünə qoydu. Təkayaqlı tumba zarıyaraq yerində ağır -ağır yırğalandı. Tumbanın səsinə dalıb yol çəkən gözlərimi anamın səsi ürkütdü.

Meyvələrini ye, bitir, geyin baxaq. Gör, nə gözəl ayaqqabıdır! Təzə ayaqqabıların da oldu. Köhnələri atarsan. İndi sənə dolma bişirəcəm. Çox şükür bu günümüzə. Çöldə masqa nəfəsimizi daraltsa da, evdə ən azından isti yeməyimiz var.

Hə, anam düz deyir, çox şükür, bu gün ətli dolma yeyəcəm...

Evimiz görmədiyi günə düşüb. Sağ-sol hər tərəfdə ərzaq....

Nə çox xəyalım var imiş. Əvvəl mən onlara sığmırdım, indi onlar evimizə sığa bilmir. Oturmaqdan keyləşən ayaqlarımı tərpətdim. Asta-asta tumbaya yaxınlaşdım. Bir gözümlə qutusunu açmağa qıya bilmədiyim təzə ayaqqabılarıma, o biri gözümlə qapının arxasında boynu bükülmüş, ayaqlarım yerə dəyməsin deyə altına karton yapışdırdığım ayaqqabılarıma baxıram. İndi onlar arasında seçim etməliydim. Deməli, həyat belə imiş. Yaxşılar, gözəllər seçilir, pislər atılır. Gözlərim doldu. Xəyallarım ilə reallığım arasında başımı itirmişdim.

Bizə şahidlik edən dörd divar bu xoşbəxtliyin uzun çəkəcəyinə inanır. Onlar bilmirdi ki, bu gələn xoşbəxtlik deyil, alçatmaz xəyallarımdır. Bəli, bu gün xəyallarım mənə qonaq gəlib. Qonağımın nə qədər qalacağını dəqiq bilmirəm. Bəlkə, bir həftə, bəlkə də bir ay. Mən onlara toxunmaq istəmirəm. Toxunsam yox olacaqlar. Gələn gedəcəkdi. Özü ilə gətirdiyi qonağımı da götürüb aparacaqdı və mən yenə anasız bomboş otaqda çürük çərçivəli pəncərəmdən gələn şıltaq küləklərlə pıçıldaşa-pıçıldaşa böyüyəcəkdim. Kaşki, görünüb tənqid olunan "kamil" qəhrəmanların gətirdiyi xoşbəxtlik görünməyən qəhrəmanlara ilham qaynağı olaydı. Onlar xəyallarımı mənə əbədi bağışlayaydı.

İndi səhərlər anamın qucağında ayılıram yuxudan. İndi mənim təzə paltarlarım, təzə ayaqqabılarım var. Qarnımız da toxdur.

Dünya fırlanırdı. Nə məni atıb getmiş atamın, nə də gecə - gündüz işləyən anamın bacarmadığını insanların kabusu olmuş "Koronavirus" bacarmışdı. Mənə xəyallarımı qonaq gətirmişdi.

İndi evimdə sevimli qonağım, əlimdə təzə ayaqqabılarım, qulaqlarımda dünyadakı milyonlarla xəstənin ah- naləsi, dilimdə isə xəcalət çəkən iki kəlmə var: "Təşəkkürlər, Koronavirus!"

Baş redaktor: F.N.RƏHİMOV

Təsisçilər: Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və “İşıq”qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet BZ mətbəəsində çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-35-60
Redaktor müavini: 6-31-35
E-mail: ishiq.qezeti@gmail.com

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 650